# İstedadlı gənclərlə işləmək, onları vaxtında üzə çıxarmaq və inkişafını təmin etmək əsas prioritetlərdir





Emin ƏMRULLAYEV

"Məktəblərdə keçirilən monitorinq nəticələri bir daha sübut edir ki, texnologiyanın təhsilə inteqrasiyası artıq qaçılmazdır və bu, hər bir şagirdin inkişafında özünü göstərir.

Monitorinq nəticələri göstərir ki, şagirdlər arasında fərqliliklər mövcuddur. Lakin bu fərqlər sadəcə nəticə deyil, bir siqnaldır. Çünki tədris prosesinin sonunda bu fərqlər üzərində təhlillər aparmaq və onlardan nəticə çıxarmaq olduqca vacibdir.

Son illərdə Respublika fənn olimpiadalarında (RFO) iştirak edənlərin sayı əhəmiyyətli dərəcədə artıb. Belə ki, olimpiadalarda iştirakçı sayı 80 mini ötüb.

Elm və Təhsil Nazirliyi olaraq bizim üçün istedadlı gənclərlə işləmək, onları vaxtında üzə çıxarmaq və sonradan inkişafını təmin etmək əsas prioritetlərdir. Hesab edirəm ki, gələcəkdə də bu cür imkanlar olacaq və istedadlarının vaxtında müəyyən olunması onların inkişafında həlledici rol oynayacaq.

İstər fundamental elmlər, istər mühəndislik, istərsə də digər ixtisaslaşmış sahələrdə inkişaf üçün imkanlar mövcuddur. Bəzən bu sahələrdə az sayda insan çalışsa da, onların ortaya qoyduğu nəticələr son dərəcə dəyərli və təsirli olur... Bu isə göstərir ki, əsas meyar sayın çoxluğu deyil, həvəs, zəhmət və istedaddır.

Təkcə bir faktı qeyd etmək kifayətdir ki, xaricdə təhsil üzrə Dövlət Proqramı vasitəsilə 300-dən çox gənc dünyanın ən nüfuzlu ilk 10 universitetindən birinə qəbul alıb. Bu, sadəcə statistik göstərici deyil. Bu, ölkənin gələcəyi üçün strateji əhəmiyyət daşıyan nəticədir. İstəyirik ki, bu gənclər təhsillərini başa vurduqdan sonra Azərbaycana qayıdıb ölkənin inkişafına töhfə versinlər.

Xaricdə təhsil üzrə Dövlət Proqramının əsas hədəfi Azərbaycan gənclərinin ən yüksək reytinqə sahib universitetlərdə təhsil imkanlarını dəstəkləməkdir. Bu proqram çərçivəsində bakalavriat, magistratura və doktorantura səviyyələrində dünyanın ən yüksək reytinqli universitetlərinə qəbul olan tələbələrə dəstək verilir... Çünki məqsədimiz həm də ölkənin insan kapitalını gücləndirməkdir.

## Respublika fənn olimpiadalarının qaliblərinə mükafatlar təqdim olunub

İyunun 24-də Bakı Konqres Mərkəzində Respublika fənn olimpiadaları qaliblərinin mükafatlandırılması mərasimi keçirilib.

Tədbirdə elm və təhsil naziri Emin Əmrullayev, gənclər və idman nazirinin müavini İndira Hacıyeva, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova, Dövlət İmtahan Mərkəzinin İdarə Heyəti sədrinin müavini Namiq Babayev, Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsinin sədri Araz Paşayev, dövlət və özəl qurumların rəsmiləri, ali təhsil müəssisələrinin rektorları, nazirlik yanında İctimai Şuranın üzvləri, media qurumlarının rəhbərləri, təhsil ekspertləri, şagird və valideynlər, eləcə də digər qonaqlar iştirak ediblər.

Tədbir Dövlət Himninin səsləndirilməsi ilə başlayıb. Daha sonra şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Ardınca cari ildə keçirilən Respublika fənn olimpiadaları barədə videoçarx nümayiş etdirilib.

Çıxış edən elm və təhsil naziri Emin Əmrullayev olimpiada qaliblərini qazandıqları uğur münasibətilə təbrik edib, bu uğurların davamlı olacağına və əldə olunan təcrübənin gələcəkdə daha böyük nailiyyətlərə imkan yaradacağına əminliyini ifadə edib.

Nazir son illərdə Respublika fənn olimpiadalarında iştirak edənlərin sayının əhəmiyyətli dərəcədə artdığını və bu il sözügedən olimpiadalarda iştirakçı sayının 80 mini ötdüyünü diqqətə çatdırıb. Emin Əmrullayev bildirib ki, istedadlı şagirdləri həvəsləndirmək, yaradıcılığa və elmə olan marağını artırmaq, nəzəri və təcrübi biliklərini təkmilləşdirmək təhsilin əsas hədəflərindən biridir.

Emin Əmrullayev çıxışının sonunda qalibləri və onların valideynlərini, müəllimlərini bir daha təbrik edib, şagirdlərə yeni nailiyyətlər arzulayıb.

Tədbirin rəsmi hissəsindən sonra qaliblərə mükafatlar təqdim edilib. Qeyd olunub ki, 2024-2025-ci tədris ilində sözügedən olimpiadalarda 8 fənn üzrə ümumilikdə 95 nəfər qızıl, 170 nəfər gümüş və 249 nəfər bürünc medal qazanıb.

Tədbir çərçivəsində musiqi nömrələri də səsləndirilib.




